# Nitqin inkişafında oxu materiallarının rolu

**Qumral Nizami qızı Mirzəyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitet*
**E-mail:** qumralnergiz@gmail.com

**Rəyçilər:** p.ü.f.d. M.R. Qasımova,
filol.ü.f.d., dos. M.N. Məmmədova

**Açar sözlər:** nitq, təhsil, qabiliyyət, uşaq, inkişaf, oxu, valideyn, məktəb
**Ключевые слова:** речь, образование, способности, ребенок, развитие, чтение, родитель, школа
**Key words:** speech, education, ability, child, development, reading, parent, school

Həyatımızın bütün sahələrində, o cümlədən, təhsildə baş verən dəyişikliklər insandan sosial istiqamətdə formalaşmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, özünütəsdiq etmək kimi xüsusiyyətləri inkişaf etdirməyi tələb edir. Uşaq hələ məktəbə getməzdən əvvəl təlimlə bağlı çətinliklərlə qarşılaşır. Uşağın əqli inkişafının, bütövlükdə, məktəb təliminə hazırlanmasının ən mühüm şərtlərindən birinin onun nitqinin normal inkişafı olduğunu qeyd edən professor Y. Kərimov yazır: "Məktəbəqədər dövrdə uşaqların nitq davranışına da ciddi fikir verilməlidir. Uşağın nitq davranışı ilk növbədə onun doğulduğu ailə, mikro mühit, ətraf aləmlə, təbiətlə şərtlənir. Uşaq böyüdükcə həyatının ilk illərindən alışdığı nitq davranışı adət şəklini alır. Danışığında ətraf aləmin stereotipləri, fərdi xüsusiyyətləri, həmçinin müvafiq jestlər, mimikalar, ton möhkəmlənir" (3, s. 38).

Valideynlərin öz uşaqları ilə az maraqlanmaları, onlarla düzgün ünsiyyət qura bilməmələri uşaqların nitq inkişafında müxtəlif pozulmalara gətirib çıxarır. Uşağın nitqinin normal inkişaf etməsi üçün valideyn körpə vaxtından onunla danışmalı, mahnılar, laylalar, nağıllar oxumalıdır. Erkən yaşlardan mobil telefon aludəçiliyi uşaqların nitqinin inkişafı və ümumi sağlamlığı üçün ən xoşagəlməz hallardandır. Uşağın erkən yaşda nitqinin inkişafı doğma dilin mənimsənilməsində mühüm rol oynayır. Bu dövrdə nitq həm inkişaf edir, həm də formalaşır. Ən vacib məsələlərdən biri uşaqla məşğul olmaq və onunla düzgün ünsiyyət qurmaqdır.

Təfəkkürün intensiv inkişafında uşağın nitqə yiyələnməsi mühüm rol oynayır. Bununla uşaq, məntiqi mühakimə yürütməyi, düzgün, sadə ümumiləşdirmələr aparmağı, əqli nəticəyə gəlməyi öyrənir. Uşaq bilməlidir ki, böyüklər danışanda onları dinləmək lazımdır. Uşağı öz səsi ilə, normal tonda danışmağa alışdırmaq da əsas məsələlərdən biridir. Professor Y. Kərimov yazır: "Nitqin forma və məzmununun vəhdəti çox ciddi vəzifələrin yerinə yetirilməsinə kömək göstərir. Bu vəzifələrə lüğət ehtiyatının zənginləşdirilməsi, səs mədəniyyətinin tərbiyə olunması, nitqin qrammatik quruluşunun, danışıq nitqinin (dialoji nitqin), nəqletmənin (monoloji nitqin) formalaşdırılması, bədii ədəbiyyatla tanışlıq, uşaqların savad təliminə hazırlanmaları daxildir" (3, s. 40).

Uşağın nitqinin inkişaf səviyyəsinin müəyyən edilməsində lüğət ehtiyatının keyfiyyəti və kəmiyyəti böyük əhəmiyyət kəsb edir. Uşaqlarda zəngin lüğət ehtiyatına malik, tələffüzünə görə aydın nitq tərbiyə edilən zaman, onlar nitq bacarıqlarından tam və geniş istifadə edə bilərlər. Zənginlik, məntiqi ardıcıllıq, düzgünlük, aydınlıq, dəqiqlik, ifadəlilik kimi tələblərin yerinə yetirilməsi şifahi nitqin keyfiyyətli olması üçün əsas şərtlərdəndir. Uşağın nitqinin məzmunlu və anlaşıqlı olması üçün zəngin lüğət ehtiyatına malik olmağı vacibdir.

Dil insanlar arasında ünsiyyətə xidmət edən fonetik, leksik, qrammatik vasitələr sistemidir. Dil, fikir, hiss ifadə etmək üçün əsas alətdir və təfəkkürlə sıx bağlıdır. İnsanın dilə nə dərəcədə yiyələndiyini onun nitqi vasitəsilə müəyyənləşdirmək olur. Erkən yaş dövründə uşaqlarda ilkin nitq bacarıqlarının formalaşması təbii (empirik) şəkildə, şüurlu tədris prosesi olmadan baş verir. Nitq beyinə daxil olan linqvistik siqnalların (səslərin, sözlərin, cümlələrin) müqayisəsi və təhlili nəticəsində formalaşır. Sözsüz ki, bu bacarıqların səviyyəsi və inkişafın intensivliyi ailə ortamından və məktəböncəsi təlimdən xeyli dərəcədə asılı olur. Bu prosesdə iki amili xüsusi qeyd etmək lazımdır: 1) sosial amil: empirizm – xüsusi dil təlimi olmadan daimi və təbii ünsiyyət mühiti; 2) psixoloji amil: şüuraltı tələbat – fikir və duyğuları sözlə ifadə etmək istəyi. İnsanın nitq bacarıqlarına yiyələnməsi aşağıdakı ardıcıllıqla baş verir: dinləmə – danışma – oxu – yazı. Ailə və məişət şəraitində empirik yolla formalaşan şifahi nitq (dinləmə və danışma) sonradan xüsusi tədris şəraitində yazılı nitqin – oxu və yazı bacarıqlarının formalaşmasına zəmin yaradır. Şifahi nitq uşaqda abstrakt təfəkkürün inkişafına təkan verir, belə ki, o, ətrafda gördüklərini və fikirlərini şifahi formada sözlər və cümlələrlə ifadə etmiş olur. Yazılı nitq daha mürəkkəb abstrakt təfəkkürün məhsuludur, çünki burada anlayışın səsli işarəsini (səslə ifadə olunmuş sözü) hərfi işarəyə çevirmək lazım gəlir. Bunun üçün insan eşitdiyi sözü səslərə ayıra bilməli, hər bir səsin yazıda işarəsini tanımalı, bu işarələri ardıcıl oxumağı, yazmağı bacarmalıdır. Nə qədər sadə görünsə də, bu, kifayət qədər mürəkkəb idraki prosesdir. Təhsilin inkişaf etdiyi bir çox ölkələrdə belə hesab edilir ki, normal əqli inkişafa malik uşaq 4-5 yaşında oxu və yazı bacarıqlarını mənimsəməyə hazır olur. "Məktəbəqədər təhsilin kurikulumu"nda təsbit olunmuş standartlar uşaqların bu dövrdə ilkin oxu bacarıqlarına yiyələnməsini nəzərdə tutur. Məktəbə gələn uşaqların bu bacarıqları nəzərə alınır və oxu üzrə təlimə hərflərin xatırlanmasından, kiçik və böyük hərflərin uyğunlaşdırılmasından başlanılır.

Nitq – ünsiyyət prosesidir. 3 yaşa yaxın normal inkişafda olan uşaqda şifahi nitq bacarıqları formalaşır. Uşaq 4-5 yaşında danışıq səslərinin müxtəlif dil vahidlərində (heca, söz, cümlə) yerini müəyyən edir. Artıq 5-6 yaşına çatanda hərf və səsləri fərqləndirir: kəsmə əlifba vasitəsilə sözlər düzəldir. Orta məktəbdə təhsilin əsas məqsədi cəmiyyətdə və təbiətdə mövcud olan varlıqların, baş verən hadisələrin mahiyyətini şagirdə izah etməkdir. Məhz buna görə də müasir dövrdə dil sosial hadisə – insanlar arasında ünsiyyət vasitəsi kimi tədris olunur. Ünsiyyət dedikdə informasiya almaq və informasiya ötürmək prosesi nəzərdə tutulur. Bu proses dörd nitq bacarığı əsasında reallaşır: dinləmə, oxu (informasiyanın qəbul edilməsi – reseptiv nitq), danışma, yazı (informasiyanın ötürülməsi – ekspressiv nitq). Bu bacarıqlardan ikisi (dinləmə və danışma) şifahi, digər ikisi (oxu və yazı) yazılı nitq bacarıqlarıdır (6, s. 3-4).

Dinləmə şifahi nitqin qavranılması, beyində mənalandırılmasıdır. Şagirdlərdə sürətli oxu vərdişi formalaşana qədər istənilən verbal məlumat onlara, əsasən, şifahi nitq vasitəsilə çatdırılır. Odur ki 1-ci sinif şagirdinin dinləmə bacarığının inkişafı xüsusi əhəmiyyət kəsb edir. İlk dərslərdən uşaqlar anlamalıdırlar ki, sinifdə səslənən istənilən fikrə onların bu və ya digər şəkildə reaksiyası vacibdir, ona görə də onlar müəllimi və sinif yoldaşlarını diqqətlə dinləməlidirlər. Dinləmə və oxu informasiya qəbul etməyə yönəlmiş reseptiv bacarıqlardır. Birinci sinif dərsliyində maksimum qrafik, minimum verbal şəkildə təqdim olunan informasiya müəllimin səsləndirdiyi dinləmə mətnləri vasitəsilə zənginləşdirilərək şagirdə çatdırılır (6, s. 9).

Danışma da dinləmə kimi şifahi nitq bacarığıdır. Lakin dinləmədən fərqli olaraq danışma reseptiv deyil, ekspressiv bacarıqdır və onun mahiyyəti bildiklərini, düşündüklərini və hiss etdiklərini şifahi nitq vasitəsilə ifadə etməkdir. Danışma bacarığının inkişafına şəkillərin təsvirindən başlamaq məqsədəuyğundur. Danışma bacarığının inkişafında üç mərhələni qeyd etmək olar: 1) gördüyünü (şəkli, hadisəni) sözlə təsvir etmək və ya nəql etmək; 2) aldığı məlu-

matı (dinlədiyini, oxuduğunu) şərh edərək danışmaq; 3) düşündüyünü danışmaq. Düşündüyünü danışmaq şifahi nitq bacarığının inkişafında daha ali mərhələdir. Bunun üçün şagirdin mənəvi dəyərlər haqqında təsəvvürləri, müəyyən məlumat dairəsi və kifayət qədər söz ehtiyatı olmalıdır. Bununla belə, bu bacarıq da ilk günlərdən formalaşdırılmalı və inkişaf etdirilməlidir. Danışma bacarığını inkişaf etdirmək üçün sinifdə müzakirələr zamanı hər bir şagirdin özünüifadəsi üçün dəstəkləyici şərait yaradılmalıdır. (6, s. 9-10).

Şagirdlərin söz ehtiyatının zənginləşməsi, ilk növbədə, mətnlərin oxusu və həmin mətnlərlə iş prosesində baş verir. Belə ki, mətnin tam qavranılması üçün oradakı söz ehtiyatının mənimsənilməsi vacibdir. Məhz buna görə də Azərbaycan dili fənn kurikulumunda "Söz ehtiyatı" standartı "Oxu" məzmun xətti daxilində verilmişdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, söz ehtiyatı digər nitq bacarıqlarında, xüsusilə danışma və yazıda da böyük əhəmiyyət kəsb edir. Şagirdin söz ehtiyatının zənginliyi onun ekspressiv bacarıqlarının, eləcə də ümumi intellektinin təzahürü və qiymətləndirilməsi üçün əsas göstəricidir (6, s. 10-11).

Dərsliyin 1-ci hissəsindəki "Sağlam həyat" bölməsinə diqqət yetirək. "Sağlam həyat" bölməsi "Gün rejimi", "İdman", "Gigiyena", "Sağlam qida" fəsillərini əhatə edir. Şagird bu fəsillərdəki mövzularla tanış olarkən, sağlamlıqla bağlı bir sıra yeni sözlər öyrənərək lüğətini zənginləşdirir, şəkil üzrə mətn qurarkən həmin sözlərdən istifadə edir. Uşaqların söz ehtiyatına *gümrah, məşq, gigiyena, kefi kök olmaq, vitamin, gümrah, riayət etmək, dərs almaq, yarış, cihaz, qida, məhsul* kimi yeni sözlər daxil olur.

Birinci sinifdə oxu bacarığının inkişafı iki istiqamətdə baş verir: 1. İlkin oxu bacarıqlarının formalaşdırılması – yazılı şəkildə təqdim olunmuş verbal materialın (sözün, cümlənin, mətnin) səsləndirilməsi. Bu prosesin mahiyyəti hərf, səs eyniləşdirilməsindən ibarətdir. 2. Oxuyub-qavrama – səsli və ya səssiz şəkildə oxunmuş verbal materialın beyində mənalandırılması. Oxuyub-qavrama yalnız məzmunu anlamağı deyil, həm də faktlardan nəticə çıxarmağı, verbal təsviri beyində canlandırmağı, mətni təhlil etməyi və s. nəzərdə tutur. İlkin oxu bacarıqlarının formalaşdırılması məktəbəqədər hazırlıq dövründə başlayır (sözün səslərə ayrılması, səslərin müvafiq hərflərlə işarə olunması). Birinci sinifdə bu proses böyük və kiçik hərflərin uyğunlaşdırılması ilə davam etdirilir. Sonrakı addım sözlərin hecalarla oxusudur. Bunun üçün ilkin mərhələdə şəkillə ifadə oluna bilən birhecalı sözlərin (at, it, şar, qar və s.) seçilməsi məqsədə uyğundur. Belə olduqda şagird məna ifadə edən hərf birləşməsini – sözü oxumaqdan fərəh duyur və daha çox söz oxumağa həvəslənir. Birhecalı sözü oxumaq 24 hərfi ayrı-ayrı səsləndirdikdən sonra onları birləşdirib bütöv sözü oxumaq deməkdir. Bu, kifayət qədər mürəkkəb idraki prosesdir, çünki hərf-səs eyniləşdirilməsindən başqa, həm də yaddaş tələb edir. Çoxhecalı sözlərdə bu proses bir neçə dəfə təkrar olunur. Sözsüz ki, ilkin mərhələdə oxu texnikası zəif olduğundan şagirdlər çoxhecalı sözləri hecalara ayırmaqda çətinlik çəkirlər. Ona görə də dərsliyin birinci bölməsində oxu üçün nəzərdə tutulan tapşırıqlarda sözlər hecalara ayrılmışdır. Bu, sözlərin oxunması (səsləndirilməsi) prosesini asanlaşdırır. İlkin oxu bacarığının formalaşması mövzu üzrə iş kontekstində baş verməlidir. Bu mərhələdə dərslikdə mövzu üzrə maksimum piktoqrafik (şəkli), minimum verbal (sözlü) informasiya təqdim edilir. Beləliklə, oxu texnikası ilə (hərflərlə tanışlıq, hərf-səs eyniləşdirilməsi, hərfbəhərf oxu, hecalarla oxu və s.) oxuyub-qavrama bacarıqlarının paralel şəkildə formalaşması təmin olunur: şagirdlər müəyyən mövzu ətrafında söhbətə cəlb olunurlar, mövzu ilə bağlı şəkillər təqdim olunur, şagirdlər şəkil adlarını oxuyur, onunla bağlı bildiklərini danışırlar; məlumat şəkillər və dinləmə mətni vasitəsilə təqdim olunur, bəzi açar sözlər yazılır və onların leksik mənası və fonematik tərkibi izah olunur; şagirdlər süjetli şəkillər üzrə hekayə qurub danışır, müxtəlif maraqlı tapşırıqlarla dinlədikləri və qismən oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər; komikslər verilir və

hər bir şəklin mahiyyətini ifadə edən qısa cümlələr təqdim olunur; şagirdlər cümlələri oxuyur, şəkillər və yönəldici suallar əsasında bu cümlələri genişləndirirlər. Beləliklə, məzmunu qavrama prosesində oxu texnikasının formalaşdırılması daha effektiv üsul hesab olunur (6, s. 12-15).

İbtidai sinif dərsliklərini incələdiyimiz zaman rəngarəng mövzuların uşaqların təfəkkürünə, nitqinə müsbət təsirini aydın şəkildə görə bilirik. Fikrimizi əsaslandırmaq üçün, birinci sinif dərsliyində olan mövzulara diqqət yetirək. Əvvəlcə onu qeyd edək ki, birinci sinif dərsliyi iki hissədən ibarətdir. Birinci hissəni nəzərdən keçirdiyimiz zaman mövzuların bölmələr üzrə müəyyən başlıqlar – fəsillər altında verildiyini görürük. Bölmələr üzrə olan fəsillərlə tanış olaq:

1. Ailə və məktəb (Mənim ailəm, Məktəb bazarlığı, Babanın hədiyyəsi, Ramin və dostları)
2. Təhlükədən qorunaq (Diqqət! Təhlükə! Yanğın, Yolda təhlükə, Evdə təhlükə, Xilasedicilər)
3. Sağlam həyat (Gün rejimi, İdman, Gigiyena qaydaları, Sağlam qida)
4. Təbiətin sirləri (Göyqurşağı, İlbiz, Göbələk, Bozqulaq) (1, s. 8-87)
5. Nağıllar aləmində (Nağılçılar, Xəyal dünyası, Biləndərin macəraları, Heyvanlar haqqında nağıllar)
6. Vətənim Azərbaycan (Vətən nədir? Vətənimizi tanıyaq, Vətənimizi sevək, Çağırır vətən!)
7. Yaxşı nədir, pis nədir (Ana məhəbbəti, Qaragözün macərası, Mərhəmət, Dostluq)
8. Dünyanı kəşf edirəm (Keçmişə səyahət, Çörək, Çizgi filmləri, Kosmos) (2, s. 6-77).

“Təhlükədən qorunaq” bölməsinin tədrisi prosesində şagirdlərin nitqinin inkişafı üzrə işin təşkili yollarını araşdırmağa çalışaq. Əvəllcə onu qeyd edək ki, “Təhlükədən qorunaq” bölməsi “Diqqət!”, “Təklükə!”, “Yanğın”, “Yolda təhlükə”, “Zəlzələ” kimi fəsilləri əhatə edir. Uşaqlar bu bölməni hərtərfli öyrənərkən nitqlərini dinləyib-anlama, danışma, söz ehtiyatını zənginləşdirmə istiqamətində inkişaf etdirirlər. Mətnin dinlənməsi zamanı dinlənilən fikirdəki əsas məqamların şərh edilməsi, faktlara əsaslanmaqla dinlənilən məlumata münasibətlərinin bildirilməsi nitqin inkişafına olduqca müsbət təsir edir. Danışıq zamanı isə həyatda gördükləri və təəssüratları haqqında danışmaq, sualları cavablandırarkən fikrin əsaslandırılması, alınan məlumatların rabitəli mətn şəklində şifahi təqdim edilməsi, qrafik işarələrin cümlə şəkilində istifadə edilməsi, dialoqlarda situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edilməsi nitqin inkişafında böyük rol oynayır. Söz ehtiyatına gəldikdə isə mövzu ilə bağlı sözlərin seçilməsi, cümlədə buraxılmış sözün müəyyən edilməsi, şagirdin yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışma, yol hərəkəti, yanğın, zəlzələ, məişət təhlükəsizliyi ilə bağlı sözlərin öyrənilməsi uşaqların söz ehtiyatını zənginləşdirərək nitqlərinin gözəlləşməsinə xidmət edir.

Apardığımız təhlil belə nəticəyə gəlməyə əsas verir ki, “Təhlükədən qorunaq” bölməsinin tədrisi prosesində 1-ci sinif şagirdlərinin şifahi nitqi bölmədəki mətnlərlə bağlı verilmiş şəkillər üzrə nəqletmə prosesində, müvafiq məqamlarda nitq etiketlərindən yerli-yerində istifadə etməklə inkişaf edir. Lüğət ehtiyatları *təhlükə, zəlzələ, xilasedici, məişət, təmir, işarə, qadağa, göstəriş, məlumat, xəbərdarlıq, dəbilqə, respirator, şlanq, hava balonu, yanğınsöndürən, işıqfor, yeraltı keçid, yerüstü keçid, piyada zolağı, səki, kəsici alət, elektrik cihazı, çoban, sürü, halqa, qolçaq* sözləri ilə zənginləşir. Oxu bacarıqları komiksləri müşayiət edən söz birləşmələri və qısa cümlələrin oxunması, kitabın başlıq, illüstrasiya və s. elementlərindən çıxış edərək məzmununun təxmin edilməsi yolları ilə təkmilləşdirilir. Həmçinin, bölmədəki “Bunları bilməliyik” rubrikalarında cümlə və onun növləri (nəqli və sual cümlələri) ilə bağlı verilmiş dil

qaydalarını öyrənməklə şagirdlərdə yazılı nitqlərinə daha şüurlu münasibət formalaşır.

İbtidai sinif şagirdlərinin nitqinin inkişafda oxu materiallarının rolu və funksiyası olduqca mühüm əhəmiyyət kəsb edir. Oxu materialları əsasında şagirdlər dinləmə, danışma, oxu, yazı, söz ehtiyatı kimi nitq bacarıqlarına yiyələnir. Beləliklə də səlis və gözəl nitq mədəniyyətinə sahib olurlar.

**Məqalənin aktuallığı.** Son zamanlar inkişaf edən texnologiya ilə bağlı olaraq ortaya çıxan telefon və kompyuter oyunları, distant təhsildən sonra uşaqları dərsdən əlavə oxu materiallarına yönləndirməkdə çətinliklər yaranmışdır. Bu baxımdan mövzunun tədqiqi öz aktuallığını qoruyaraq bu sahədə görüləcək işlərin nə qədər əhəmiyyət kəsb etdiyini göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ibtidai siniflərdə oxu materialları əsasında nitqin inkişaf etdirilməsi üzrə işin sistemi yaradılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün dərslik (1-ci hissə). Bakı: Şərq-Qərb, 2019.

2. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün dərslik (2-ci hissə). Bakı: Şərq-Qərb, 2020.

3. Baxışova Ş. Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitqinin inkişaf etdirilməsi yolları. “Məktəbəqədər və ibtidai təhsil” elmi-metodik jurnalı. Bakı, 2019.

4. Kərimov Y. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: «MMC Poliqraf», 2009.

5. Kərimov Y. Uşaq məktəbə gedir. Bakı: Nağıl evi, 2002.

6. Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün “Azərbaycan dili” fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: “Radius” MMC mətbəəsi, 2020.

**Г.Н. Мирзоева**

## Роль материалов для чтения в развитии речи

## Резюме

Процесс развития речи считается одним из важнейших предметов в системе образования. Недостаточное внимание к развитию речи, проявляется на каждом этапе обучения в переходе от начального образования к высшему. Развитие речи играет важную роль в достижении успеха учеников в школе.

При вступлении к начальному образованию дети уже имеют определенные речевые навыки. Наряду с получением образования вместе с другими речевыми способностями речь сама по себе начинает изучаться планомерно. Использование материалов в различных жанрах для чтения при развитии речи учеников начальных классов имеет довольно большое значение.

В статье речь идет о развитии речевых способностей учеников начальных классов на основе материалов для чтения.

**G.N. Mirzayeva**

## The role of the reading materials for speech development

## Summary

The process of speech development is one of the most important issues in the education system. Paying less attention to speech development reveals itself at every stage of education, from primary to higher education. Speech development takes an important place in students' success at school.

When children start to primary school, they already have certain speech skills. So that, students also learn speech and speaking skills in a planned way while studying. The use of reading materials in different genres is very important for the development of speech in primary school students.

The article describes the development of speech skills in primary school students on basis of the reading materials.

**Redaksiyaya daxil olub:** 24.11.2021